— Olimpiya Oyunları tarixindən —

# Olimpiya Oyunlarında bayraqdar olan atletlərimiz

***Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir. Bəli, bayraq, gerb, himn kimi rəmzlər milli dövlətçiliyin varlığını, xalqın amallarını obrazlı və bədii dildə ifadə edən mühüm amillərdəndir. Odur ki, özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc mənbəyi sayılır.***

***Müstəqillik qazandıqdan sonra üçrəngli bayrağımız dünyanın ən mötəbər idman tədbirlərində də qürurla dalğalanmağa başlayıb. Ölkəmizi nüfuzlu yarışlarda uğurla təmsil edən atletlərimizin nailiyyətləri ildən ilə artmaqdadır. Hər bir idmançının əldə etdiyi qızıl medal sayəsində fəxri kürsüdə bayrağımız dalğalanır, himnimiz səslənir.***




Olimpiya Oyunları dünyanın ən nəhəng idman tədbiri statusunu qorumaqda davam edir. Atletlərimiz Olimpiya oyunlarında uğurla çıxış edir, bayrağımızı zirvələrdə dalğalandırır. Oyunlarda bu missiya ilk olaraq bayraqdarların üzərinə düşür. Mötəbər arenlarda ölkəmizin ən güclü və titulu atletləri üçrəngli bayrağımızı təmsil edirlər.

"Olimpiya dünyası" qəzeti müstəqillik əldə etdikdən sonra Yay Olimpiya Oyunlarında bayraqdar olan idmançılar və onların göstərdiyi nəticələr barəsində geniş yazını çoxsaylı oxucularına təqdim edir.




### Atlanta-1996

Barselonada keçirilən Yay Olimpiya Oyunlarında MDB yığmasının heyətində qızıl medal əldə edən Nazim Hüseynov Müstəqil Azərbaycanın Olimpiya oyunlarında ilk bayraqdarı hesab olunur. 9 idman növü üzrə 23 atletlə (20 kişi, 3 qadın) Oyunlara qoşulan Azərbaycan yığması Atlanta Olimpiya stadionuna Nazim Hüseynovun əlindəki bayraqla daxil olmuşdu. Olimpiya çempionumuz 60 kq çəki dərəcəsində 4 il əvvəlki uğurunu okeanın o tayında təkrarlaya bilməmişdi. O, 1/16 mərhələsində argentinalı Xorxe Lensinanı məğlub etsə də, növbəti görüşdə Rikardo Açuna uduzmuşdu. Həmin Olimpiya Oyunlarında Azərbaycan yığma komandası cəmi 1 medal qazanmışdı. Belə ki, 52 kq çəki dərəcəsində sərbəst güləş yarışlarında mübarizə aparan Namiq Abdullayev gümüş medala sahib çıxmışdı. Mübarizəyə 1/16 mərhələsindən başlayan Namiq Abdullayev finala gedən yolda amerikalı Lu Rosselini (7:0), yaponiyalı Hideyo Sasayamanı (11:0), özbəkistanlı Adham Açilovu (11:0), iranlı Qolamreza Mohammadini (10:0) qabaqlayaraq, finala yüksəlmişdi. Həlledici görüşdə güləşçimiz bolqarıstanlı Pavel Yordanova (3:4) məğlub olaraq, Atlanta-1996 Yay Olimpiya Oyunlarının gümüş medalı ilə kifayətlənmişdi. Güləşçimizin əldə etdiyi gümüş mükafata görə yekunda Azərbaycan yığma komandası 197 ölkə arasında 61-ci yeri tutmuşdu.

### Sidney-2000

Atlantadan sonra Yay Olimpiya Oyunlarında mübarizə aparmaq arzusunda olan idmançılar bu dəfə Avstraliyaya toplaşdılar. XX əsrin sonuncu Yay Olimpiya Oyunları Sidneydə təşkil olunmuşdu. 199 ölkədən 11 mindən artıq idmançının mübarizəsinə Azərbaycan yığmasının üzvləri də qoşulmuşdu. 8 idman növü üzrə 31 atletin (25 kişi, 6 qadın) Oyunların açılış mərasiminə ev sahibliyi etdiyi "Avstraliya" stadionuna daxil olduğu vaxt üçrəngli bayrağı Atlanta-1996-nın gümüş mükafatçısı Namiq Abdullayev dalğalandırırdı. Sərbəst güləşçimizin 4 ildən sonra Sidneyə Olimpiya çempionluğu üçün gəldiyini sübut etməli idi. "Yaşıl qitə"də 54 kq çəkisində finala qədər o, şimali koreyalı Çjin Çju Tonu (6:0), yeni zelandiyalı Martin Liddlı (10:0) və Yunanıstan təmsilçisi Amiran Kardanovu (5:3) mübarizədən kənarlaşdırmışdı. Qızıl medal və Olimpiya çempionu titulu uğrunda final görüşündə onun rəqibi Samuel Henson idi. Atlanta-1996-da cəmi 1 xal fərqi ilə çempionluqdan məhrum olan Namiq Abdullayev Sidney-2000-də rəqibinə 1 xal fərqilə (4:3) qalib gələrək, çempion adını qazanmışdı. Bu qızıl medal müstəqil Azərbaycanın Yay Olimpiya Oyunlarında əldə etdiyi ilk uğurlu nəticələrdən biri idi. Yəni Namiq Abdullayevdən başqa Azərbaycan himnini uzaq Avstraliyada stend atıcımız Zemfira Meftaxetdinova da səsləndirmişdi. Ümumilikdə bu Oyunlarda komandamız üç mükafat əldə etmişdi. Komandamızın heyətində Vüqar Ələkbərov (75 kq) bürünc mükafata sahib çıxmışdı. Bu nəticə ilə Azərbaycan 200 ölkənin medal siyahısında 34-cü yeri tutmuşdu.

### Afina-2004

"Yaşıl qitə"də keçirilən olimpiadadan dörd il sonra Yay Olimpiya Oyunlarının vətəni sayılan Yunanıstan dünyanın ən güclü idmançılarının mübarizə meydanına çevrildi. Ölkəmiz XXVIII Yay Olimpiya Oyunlarında 10 növdə 36 idmançı (30 kişi, 6 qadın) ilə təmsil olunurdu. Açılış mərasimində Azərbaycan bayrağı ağırlıqqaldıranımız Nizami Paşayevə həvalə olunmuşdu.

Dünya və Avropa çempionatlarının qalibi olan Nizami Paşayev 94 kq çəki dərəcəsində mübarizəyə başlamışdı. Lakin onun Afinadakı çıxışı uğursuz alınmışdı. Nizami Paşayevdən fərqli olaraq, Azərbaycan təmsilçilərindən 5 nəfəri ölkəmizə mükafatlar qazandırdılar. Belə ki, Afina Yay Olimpiya Oyunlarında Azərbaycan növbəti Olimpiya çempionu ilə diqqət mərkəzinə düşdü. Yunan-Roma güləşçimiz Fərid Mansurov (66 kq) Oyunların qızıl mükafatına layiq görüldü.

O, finala qədər mübarizədə kubalı Xuan Mareni (4:0), polşalı Riçard Volnını (6:2), iranlı Pərviz Zeyvəndi (2:1), isveçli Cimmi Samuelssonu (4:1) qabaqladı. Final görüşündə isə dünya və dəfələrlə Avropa çempionu, türkiyəli Şərəf Ərəoğlunu məğlub edərək (5:4), yunan-roma güləşində ilk Olimpiya çempionumuz oldu.

Ölkəmizə bürünc medalları isə İradə Aşumova (atıcılıq, 25 metr, tapança), Zemfira Meftaxetdinova (stend), Fuad Aslanov (boks, 51 kq) və Ağası Məmmədov (boks, 54 kq) qazandırmışdılar. Bu nəticələrdən sonra ölkəmiz 201 yığma komanda arasında 50-ci yerdə qərarlaşmışdı.

Məlumat üçün bildirək ki, yığmamızın heyətində Sidney-2000-nin bayraqdarı və Olimpiya çempionu Namiq Abdullayev də yer almışdı. Lakin sərbəst güləşçimiz "Qədim Ellada"da fərqlənə bilməmişdi.

### Pekin-2008

Dörd ildən bir Yay Olimpiya Oyunlarında böyük uğurlara yiyələnən Azərbaycan idmançıları üçün növbəti sınaq Pekin Olimpiadası idi. Əvvəlki olimpiadalarda həm idmançı sayı, həm də mükafat sayı ilə yeni nəticə əldə edən Azərbaycan Çin paytaxtında idmanın 10 növü üzrə 44 (30 kişi, 14 qadın) idmançı ilə təmsil olunmuşdu. Oyunlar üçün inşa olunan möhtəşəm "Quş yuvası" stadionuna açılış mərasimində iştirak üçün daxil olan nümayəndə heyətimizin önündə Afina-2004-ün qalibi Fərid Mansurov bayraqdar kimi irəliləmişdi. Pekinə ikiqat Olimpiya çempionu olmaq üçün yollanan Fərid Mansurovun çıxışı uğursuz alınmışdı. İlk görüşdə Ukrayna təmsilçisinə uduzan güləşçimiz Oyunları mükafatsız başa vurmuşdu. Lakin Azərbaycan komandasının heyətində yeni Olimpiya çempionu parlamışdı. Cüdo yarışlarında bütün dünya Azərbaycan idmançısının möhtəşəm çıxışı qarşısında heyrətlənmişdi. 73 kq çəki dərəcəsində cüdoçumuz Elnur Məmmədli qızıl medala gedən yolda belçikalı Dirk van Tiçelti, belaruslu Konstantin Semyonovu, şimali koreyalı Kim Çol-Sunu, iranlı Əli Məlumatı vaxtından əvvəl, ipponla məğlubiyyətə uğratmışdı. Final görüşündə cənubi koreyalı Van Qi Çxunu da eyni aqibətlə məğlub edərək, Olimpiya oyunlarının qalibi olmuşdu. Məlumat üçün bildirək ki, Elnur Məmmədlinin Olimpiya oyunlarındakı bu uğuru hələ də rekord nəticə olaraq, qalmaqdadır.

XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan idmançılarının əldə etdiyi medal bununla bitmirdi. Yunan-Roma güləşçimiz Rövşən Bayramov (55 kq) yalnız finalda uduzaraq, gümüş medalla kifayətlənmişdi. Bürünc medalları isə Mövlud Mirəliyev (cüdo, 100 kq), Mariya Stadnik (qadın güləşi, 48 kq), Xetaq Qazyumov (sərbəst güləş, 96 kq) və Şahin İmranov (boks, 57 kq) komandamızın aktivinə əlavə etmişdilər. Bu nəticələrdən sonra Azərbaycan Pekin-2008 Yay Olimpiya Oyunlarında iştirak edən 204 ölkə arasında 40-cı pillədə qərarlaşmışdı.

*(ardı var)*

***Anar Əhmədov***

